KORRUPSİOMETR

Vilyam Hacıyev vaxtından əvvəl azadlığa buraxılıb

AzadlıqRadiosu ©

Noyabr 27, 2026



Bentley, Range Rover və pullar- İcra başçısı əməliyyatla həbs edildi (Arxiv)

İmişlinin həbsdə olan sabiq icra başçısı **Vilyam Hacıyev** azadlığa buraxılıb.

Ölkənin yerli saytlarının məlumatına görə, bununla bağlı bu gün, noyabrın 27-də Xəzər rayon Məhkəməsi qərar çıxarıb.

V.Hacıyevin səhhəti ilə əlaqədar vaxtından əvvəl azadlığa buraxıldığı bildirilir.

Onun cəzasının başa çatmasına 2 ilə yaxın vaxt qalmışdı.

Hələlik V.Hacıyevin özü ilə danışmaq mümkün olmayıb.

2019-cu ildən bəri Azərbaycanda korrupsiya və vəzifə cinayətlərinə görə həbs olunan icra başçılarından dördü azadlığa çıxıb. Onlardan üçü vaxtından əvvəl — ikisi məhz səhhətindəki problemlərə görə — azadlığa buraxılıb.

Həbs olunan keçmiş icra başçılarından ikisi vəfat edib. Ağstafanın keçmiş icra başçısı Nizaməddin Quliyev 2021-ci ildə Gəncədəki modul tipli xəstəxanada COVID-19-dan ölüb.

Yevlaxın keçmiş icra başçısı Qoca Səmədov isə həbsdə olduğu müddətdə üç dəfə əməliyyat olunub. O, azadlığa buraxılandan təxminən beş ay sonra vəfat edib.

14 iyun

Həbsdə olan sabiq icra başçısının cəzası azaldıldı

14 il boyunca Göygöl, Samux və İmişli rayonlarının icra başçısı olmuş **Vilyam Hacıyev**in cəzası azaldılıb. Ali Məhkəmədə Şahin Yusifovun sədrlik etdiyi hakimlər kollegiyası belə qərar verib. Bakı Ağır Cinayətlər Məhkəməsində kəsilmiş 12 illik cəza 8 il 6 aya endirib. Bu zaman Cinayət Məcəlləsinin 62-ci (cinayətə görə müəyyənləşdirilmiş cəzadan daha yüngül cəza təyini) maddəsi tətbiq edilib.

V.Hacıyev 2004-2020-ci illərdə icra başçısı vəzifəsində çalışıb. O, öncə 2 il Göygöl rayonunun, ardınca 6 il Samuxun icra başçısı olub. 2012-ci ildən 2020-ci ilin mayında həbs olunanadək isə İmişli rayonuna rəhbərlik edib.

V.Hacıyev 7 milyon manatdan çox yeyintidə, vəzifə səlahiyyətlərindən sui-istifadədə və başqa əməllərdə suçlanır.

> O, 2020-ci ilin mayında həbs edilib

2022-ci ilin iyulunda Bakı Ağır Cinayətlər Məhkəməsində ona hökm oxunub və 12 il həbs cəzası verilib.

Özünə və ailə üzvlərinə məxsus təxminən 5 milyon 400 min manatlıq əmlak, o cümlədən saxlanılarkən, evindən və iş otağından tapılan pullar müsadirə olunub. Dövlət nəfinə müsadirə edilən əmlaklar arasında Hacıyevlər ailəsinə məxsus evlər, avtomobillər var. Onların da çoxu keçmiş icra başçısının həyat yoldaşının, bir avtomobil də oğlunun adınadır.

Müsadirə edilmiş əmlaklar arasında Bakıda "milyonçular məhəlləsi" adlanan ərazidə - Teymur Əliyev küçəsindəki 1.8 milyon manatlıq ev, Nərimanov rayonu, Sabit Rəhman küçəsindəki 275 min manatlıq mənzil, Nardarandakı 2.7 milyon manatlıq bağ evi, Xırdalandakı dörd mənzil, "Bentley" və BMW markalı avtomobillər var.

Bu üzdən, hökmdən sabiq icra başçısının özü ilə yanaşı, həyat yoldaşı **Cülyetta İbrahimova** və oğlu **Məhəmməd Hacıyev** də yuxarı instansiya məhkəmələrinə şikayət vermişdilər.

Sabiq icra başçısı özünü təqsirli bilmir, ona qarşı irəli sürülmüş ittihamlarla razılaşmır. O, məhkəmədə sifarişlə həbs edildiyini bildirib.

AzadlıqRadiosu ©

*- **MÜTLƏQ** hiperlinklə istinad verilməlidir.*
- İcazə olmadan fotolarımızı təkrar dərc etməyin.
*İstifadə şərtləri haqda **ətraflı burada***

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur